# Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş tədbir



Bakının Nərimanov rayonunun ərazisində yerləşən “Nurgün” şirkətində 31 dekabr — Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə bayram təbdiri keçirildi. Mərasimdə çıxış edən şirkətin direktoru Yaşar Əliyev vurğuladı ki, milli birliyin ideoloji əsası olan Azərbaycançılıq ideyası ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev tərəfindən formalaşdırılmışdır. 1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın təkidli tələbi ilə ulu öndərimiz Heydər Əliyev yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra ölkənin ictimai həyatının bütün sahələrində, o cümlədən milli həmrəyliyin təmin olunması, xaricdə yaşayan həmvətənlərimizlə əlaqələrin möhkəmlənməsi istiqamətində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlamışdır.

Dünyanın indiki inkişaf mərhələsində diasporun əhəmiyyəti danılmazdır. Məhz buna görə də bu gün xarici ölkələrdə mütəşəkkil və güclü diasporumuz yaradılmışdır. Milli diasporumuz bu gün Azərbaycan üçün çox vacib olan lobbiçilik fəaliyyətinin formalaşdırılmasında və onun Azərbaycanın həyati maraqlarına yönəldilməsində mühüm rol oynayır.

Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı xaricdəki soydaşlarımızın ümumi məqsəd, vahid Azərbaycançılıq ideyası ətrafında birləşməsi yolunda mühüm əhəmiyyət kəsb etmiş, diaspor hərəkatı tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyulmuşdur.

Azərbaycan diasporunun inkişafı və mütəşəkkil qüvvəyə çevrilməsi Dünya Azərbaycanlılarının I Qurultayından sonra dövlət siyasətinin prioritet məsələlərindən birinə çevrilmişdir.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Respublikasının dünyaya inteqrasiyası, iqtisadi-mədəni inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsində əhəmiyyəti rol oynamış çoxsaylı səfərləri zamanı həmvətənlərimizlə görüşlər keçirir. Onların problemləri ilə maraqlanır, dəyərli tövsiyələr verir, soydaşlarımızı Azərbaycanın ictimai, iqtisadi, mədəni həyatında fəal iştiraka səsləyirdi. “Azərbaycan mənim ürəyimdir” — deyən Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyi həm də onda təzahür etmişdir ki, o, diaspor ilə işi yalnız ölkəmizin siyasi-iqtisadi maraqlarının tərkib hissəsi olaraq deyil, ilk növbədə milli-mənəvi məsələ kimi irəli sürürdü.

Yaşar Əliyev sözünə davam edərək vurğuladı ki, bu gün Prezident İlham Əliyevin titanik səyi nəticəsində Azərbaycan diasporu böyük iqtisadi, mədəni, intellektual qüvvəyə malikdir, həmvətənlərimiz yaşayan ölkələrin ictimai-siyasi həyatına onların təsiri getdikcə daha artıq hiss olunur. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təntənə ilə qeyd edilməsi müxtəlif ölkələrdə yaşayan həmvətənlərimiz tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

**Qədir ASLAN,**
**“Respublika”.**